# ŞİİRLER

# Araz Gündüz

Nənəmin nisgili

*(Ana sarıdan nənəm O Taydan Bu Taya gəlin köçmüşdü.)*

Oturub-durub Tanrının
qarasınca deyinən,
O taydan bu taya
gəlin köçdüyü günə
minbir qarğış eləyən,
O tayın iki addımlıq
əlçatmazlığında qalmış
dörd qardaşı üçün,
burnunun ucu göynəyən,
Qardaş iyini alsın deyə
O taydan əsən küləyi iyləyən,
Bir xanim-xatın nənəm vardı:

Ər evindən gor evinə

Qardaş çiynində getmək istəyi

gözündə qaldı…

2009

Postmodern nağıl

Ay Yurdumun “saqqallı uşaqları”,

yığışın, toplaşın başıma,

Sizə “Cırtdanın nağılını”

yenidən danışım.

Cırtdanın dediyi oydu ki,

Divin yekəliyinə baxmayın,

Divin görkəmindən qorxmayın,

“Gözüaçıq” olun, “gözüaçıq”!

İndi ki, sizi qapan itlərin qorxusundan,

Divin yanına gəlib çıxmısınız,

bilin ki, gözünüzü yummasanız

Div sizləri yeyə bilməz.

Nə boyda heyvərə Div olsa belə,

soyadı ya “Yox”-ov, ya da “Hə”-yev olsa belə,

Yer üzündə “gözüaçıq” adamları yeyə biləcək

Div yoxdur, yoxdur, yenə də yoxdur…

2010

Keçən günə gün çatmaz

Ötən çağı

nisgillə anmağın

iki niyəsi var məncə:

Biri: orda nələrinsə

biryolluq, əlçatmaz qalmağıdır;

O biri: burda tapılanların

orda itirilənlərdən

yaxşı olmadığıdır…

2009

## Tanrıdan sorğu

"Ay Ata, ay Ata, nə olar

məni də özünlə şəhərə apar"--

deyib, yalvar-yapışla

yan alardıq Atamıza

biz səkkiz qardaşlar.

Bu qədər uşağı birdən

şəhərə aparmaq olmazdı,

Biz çoxuyduq,

Atamınsa pulu-parası azdı;

Uzaq başı birimizə:

ya yaxşı dərs oxuyanımıza,

ya da sözə baxanımıza,

şəhərə getmək

sırası yetərdi.

Şəhər görümlü-baxımlı idi:

Qarışqa tək qaynaşan

çoxlu adamları ilə,

Bizim kəndin evlərinə
oxşamayan,
hündür damları ilə,
noğulu, halvası ilə,
dişimizi göynədən
dondurması ilə,
buzlu-qazlı suları ilə,
Evimizdə bişməyən,
qonşudan "düşməyən"
pitisi, cız-bızı, şişliyi ilə;
Qır basılmış
yollar, səkilər,
bizim kəndimizdə
nə gəzirdi,
Şəhərin heç nəyi
bizim kəndimizə
bənzəmirdi...

Şəhərdən qayıdardıq
"bilikli", "ağıllı",
Şəhərə getməyə
yolları bağlı,
üç bacımıza
danışardıq bir uzun
Şəhər nağılı...
Ay keçdi, il ötdü
yetdik ərsəyə:
bir-birinin yüyrüyünü
yelləyə-yelləyə,
bir-birinin köhnəsini
geyə-geyə,
məmə yeyəndən,

pəpə deyənəcən,

böyüdük yavaş-yavaş--

səkkiz qardaş,

üç bacı...

İndi yolumuz açıq

Dünyanın hər yerinə:

böyüklü, balacalı,

istənilən şəhərinə;

Qoca Anam demişkən:

“Çıxıb Ata Ocağından,

Düşüb çörək sorağına,

Urumdan-Şama kimi

Dağılmışıq dörd yana.”

İndi, gəlib çatdığımda

Yarı yaşıma,

Atamı bizdən ayırıb,

Öz yanına aparan:

"Qəm eləməyin,

Bu dünyadan köçən

Ataların yerində Mən qalıram"

deyən, Ulu Tanrıdan

soruşmaq istəyirəm:

Niyə belə azalıb,

Onun yanına salıb

Bu Yurda gətirdiyi

barmaqla sananan

Yaxşıları, Doğruları?

Yaxşılığın dərsini

Yaxşı oxuyanlar,

Doğru sözə

qulaq asanlar,

nədən az dəyir gözə?

Doğru qəhətliyi,

Yaxşı qıtlığıdı,

Yoxsa Tanrının da,

Mənim yoxsul

Atam kimi,

Əli aşağıdı?!..

28 dekabr 2009-cu il. (Ad günüm)

Araz Gündüz

Mənim də bəxtimə bu ömür düşüb,
Onu sonunacan yaşamalıyam,
Bir insan ömrünün dağ yükünü mən
Arzu mənzilinə daşımalıyam.

O qədim nağılın qəhrəmanı tək
"Gedər-gəlməz" yola düşüb gedirəm,
Ən azman divlərlə döyüşəm gərək,
"Solmayan çiçəyi" tapıb gətirəm.

O "solmayan çiçək" ulu ad-sanım,
Özümdən sonra da yaşasın gərək,
İndiki uşaqlar baba olanda,
Məndən də bir nağıl danışsın gərək!

1985.

Şair Məmməd Araza

Çox da işıq gələn tərəfdə div var,

Çox da kecilməz dağ, qaya divar var,

Dünyaya gəlməyə Günəş yol tapar:

Günəşlə yanaşı durmasa Məslək,

Sən kimə gərəksən, mən kimə kərək?!

1983.

Payız görüntüləri

I

Yaman uzun çəkdi yayın biş-düşü:

Ocağı altında dağ-daş yanıbdı,

Yolların yadına payızmı düşüb,

Sinəsi həsrətdən qubarlanıbdı?

1983.

II

Bir parça buludla sıxıb gözünü

Günəş doluxsunub, ağlaya bilmir,

Bir qəmli nağıldır bu payız günü:

Göylər göz yaşını saxlaya bilmir.

1983.

III

Göylər köç təbili çalıb guruldar,

İldırım-ildırım cırıb üzünü--

Gözünün yaşını tökər buludlar;

Ölüm sarılığı çöküb üzünə,

Ömrü yarpaq-yarpaq yelə sovrular,

Köçən təbiətin ruhudu yoxsa,

Köçəri quşlara qoşulub uçar.

2010.

Xatirələrim

Yaddaşımda qazıb basdırdığım

Gizlin bir xəzinədir-xatirələrim:

Yerini yalnız xəyallarım bilir...

1985.

Nənəmin nisgili

(Ana nənəm O Taydan Bu Taya gəlin köçmüşdü)

Oturub-durub Tanrının

qarasınca deyinən,

O taydan bu taya

gəlin köçdüyü günə

minbir qarğış eləyən,

O tayın iki addımlıq

əlçatmazlığında qalmış

dörd qardaşı üçün,

burnunun ucu göynəyən,

Qardaş iyini alsın deyə

O taydan əsən küləyi iyləyən,

Bir xanım-xatın nənəm vardı:

Ər evindən gor evinə

Qardaş çiynində getmək istəyi

gözündə qaldı…

2009.

Postmodern nağıl

Ay Yurdumun “saqqallı uşaqları”,

yığışın, toplaşın başıma,

Sizə “Cırtdanın nağılını”

yenidən danışım.

Cırtdanın dediyi oydu ki,

Divin yekəliyinə baxmayın,

Divin görkəmindən qorxmayın,

“Gözüaçıq” olun, “gözüaçıq”!

İndi ki, sizi qapan itlərin qorxusundan,

Divin yanına gəlib çıxmısınız,

bilin ki, gözünüzü yummasanız

Div sizləri yeyə bilməz.

Nə boyda heyvərə Div olsa belə,

Yer üzündə “gözüaçıq” adamları yeyə biləcək

Div yoxdur, yoxdur, yenə də yoxdur…

2010.

Keçən günə gün çatmaz

Ötən çağı
nisgillə anmağın
iki niyəsi var məncə:
Biri: orda nələrinsə
biryolluq, əlçatmaz qalmağıdır;
O biri: burda tapılanların
orda itirilənlərdən
yaxşı olmadığıdır…

2009.

Tanrıdan sorğu

"Ay Ata, ay Ata, nə olar
məni də özünlə şəhərə apar"--
deyib, yalvar-yapışla
yan alardıq Atamıza
biz səkkiz qardaşlar.
Bu qədər uşağı birdən
şəhərə aparmaq olmazdı,
Biz çoxuyduq,
Atamınsa pulu-parası azdı;
Uzaq başı birimizə:
ya yaxşı dərs oxuyanımıza,
ya da sözə baxanımıza,
şəhərə getmək
sırası yetərdi.
Şəhər görümlü-baxımlı idi:

Qarışqa tək qaynaşan
çoxlu adamları ilə,
Bizim kəndin evlərinə
oxşamayan,
hündür damları ilə,
noğulu, halvası ilə,
dişimizi göynədən
dondurması ilə,
buzlu-qazlı suları ilə,
Evimizdə bişməyən,
qonşudan "düşməyən"
pitisi, cız-bızı, şişliyi ilə;
Qır basılmış
yollar, səkilər,
bizim kəndimizdə
nə gəzirdi,
Şəhərin heç nəyi
bizim kəndimizə
bənzəmirdi...
Şəhərdən qayıdardıq
"bilikli", "ağıllı",
Şəhərə getməyə
yolları bağlı,
üç bacımıza
danışardıq bir uzun
Şəhər nağılı...
Ay keçdi, il ötdü
yetdik ərsəyə:
bir-birinin yüyrüyünü
yelləyə-yelləyə,
bir-birinin köhnəsini
geyə-geyə,

məmə yeyəndən,

pəpə deyənəcən,

böyüdük yavaş-yavaş--

səkkiz qardaş,

üç bacı...

İndi yolumuz açıq

Dünyanın hər yerinə:

böyüklü, balacalı,

istənilən şəhərinə;

Qoca Anam demişkən:

“Çıxıb Ata Ocağından,

Düşüb çörək sorağına,

Urumdan-Şama kimi

Dağılmışıq dörd yana.”

İndi, gəlib çatdığımda

Yarı yaşıma,

Atamı bizdən ayırıb,

Öz yanına aparan:

"Qəm eləməyin,

Bu dünyadan köçən

Ataların yerində Mən qalıram"

deyən, Ulu Tanrıdan

soruşmaq istəyirəm:

Niyə belə azalıb,

Onun yanına salıb

Bu Yurda gətirdiyi

barmaqla sananan

Yaxşıları, Doğruları?

Yaxşılığın dərsini

Yaxşı oxuyanlar,

Doğru sözə

qulaq asanlar,



nədən az dəyir gözə?

Doğru qəhətliyi,

Yaxşı qıtlığıdı,

Yoxsa Tanrının da,

Mənim yoxsul

Atam kimi,

Əli aşağıdı?!..

Araz Gündüz

Yeni şeirlər

Sənsizlik.

Sənin çıxıb getməyin
Dönərgəmin dönməsiymiş,
yəni çərxi-fələyin gərdişinin
mənim qapımı bağlaması imiş;
Belə “qapı bağlamağına”
inanmıram düzü mən,
Sən ki gəlsəydin üz-üzə
qapının ağzında sənsizliyinlə
geri dönərdin...
Nə deyim indi...
sanki çağrılmamış qonaqdı sənsizlik,
oturub mənimlə üz-üzə otağımda...
Nə mənim onu qovmağa üzüm,
nə onun bir gedəsi yeri yoxdu,—
Sən gəlməsən...
1986.

Qış gününün Məcnunluğu

Bu qarlı-çovğunlu qışın günündə,
sənə olan vurğunluğum
mənliyimi yenib, üstələyndə
yerimdə oturub
qala bilmədim,
Səni görüşə çağırmadan
durub, görüşünə gəldim.

Yolun düz yarısınacan
məni toxtatmaq üçün
bir alver konusundan
söz açan:
Ziyanın yarısından
dönməyin qazancından
danışan ağlımı,

soyuq vurmasın deyə
başıma yığdım;
Yerindən oynayıb qanadlanan,
göynən gedən ürəyimi
toxtadıb, düşürdüm öz yerinə;
Öz yerini bilməyən
yersiz utancaqlığımı
yola saldım, üzümdən
gözlərimin dərinliyinə;
Təkcə bu dinc durmayan
dilimi saxlaya bilmlrdim,
onun “söz köhləni” yüyən gəmirirdi—
"Bir at gücünün" çəkə biləcəyi
söz yüküylə çapıb gəlirdi:
Çoxusu sənə deyiləsi alqış,
bir azı da məni sevməyə çağırış.

...Bir də düşünürdüm, gəlmişkən elə
sınayaram uğurumu,
yoxlayıb, bilərəm:
Sevən könüllərdən biri-birinə
yol olduğu doğrumu?..

Sənə, gəldiyimi duyurmaq üçün
sizin pəncərənizlə
durdum göz-gözə:
Eviniz gözümün içinə baxdı...
O, baxdı... Mən baxdım... Qar yağdı...
Mən durdum, dayandım,
dözdüm, gözlədim...
Evinizinsə, səni gizlədən
baxışlarından bəlli idi,
canının sıxılmağı:
Sevən könüllərin
yolunu bağlamağı
onu elə sıxırdı,
elə yandırıb yaxırdı:
Tüstüsü təpəsindən çıxırdı...

Ya bir gözəgörünməzlik
araxçınım olsaydı,
Ya da bir "sim-sim" duası ilə
divarınız yarılsaydı,
Atanın ayıq-sayıq baxışlarını
çaşdıra bilsəydim,
Səni bu "ev dustaqlığından"
qaçıra bilsəydim,
"Sehirli çubuq" yerinə
toxuna bilsəydim əllərinə:
Ürəyimin sevgidən,
dizlərimin soyuqdan,
nanə yarpağı tək əsməyi;
dilimin üşüməkdən
topuq vurmağı;
Uğurumun üzə durmağı,
ayrılığın amanımı qırmağı,
bitərdi biryolluq...

Sözümə yer tanıq, göy tanıq,
bu sazaqlı qışın günü tanıq,
Nə acı bir söz,

nə danlaq, nə qınaq
ürəyimdən keçməmiş,
dilimdən çıxmamışdı;
Eləcə qəmli-qəmli dayanıb,
pəncərənizə baxmışdım.
Bir də onda ayıldım ki,
iş-işdən keçmiş: